# SOSİAL PROBLEMLƏR VƏ MƏNƏVİ TARAZLIQ

*(Əvvəli ötən saylarımızda)*

## "Yoxsulluq" poeması haqqında düşüncələr

Gənclərin gələcək həyatını, bu həyatın hansı tərzdə davam edəcəyini, necə olacağını bir çox hallarda ata-ananın, qohumların, bir sözlə, gəncləri əhatə edən mühitin dünyagörüşü, həyata münasibəti, bir-birinə sevgi hissləri bəsləyən gənclərə onların yanaşması ilə bağlıdır. Şübhəsiz, hər bir ata-ana istəyər ki, övladı xoşbəxt olsun. Övladı rahat, firavan, qayğısız həyat yaşasın. Ancaq bu həmişə mümkün olurmu? Xeyir. Yanaşmanın özü daha çox reallığa söykənməlidir. Bir-birini sevən, bir-birini duyan gənclərin münasibəti əsas olmalıdır. Çox təəssüf ki, müəyyən imkanlarına güvənən ata-ana sevgi hisslərini, gənclərin bir-birinə həssas duyğularla bağlanmalarını ikinci dərəcəli hesab edir. Əsas odur ki, onlar gələcək maddi təminata uyğun olan ailələrlə qohum olsunlar. Hətta bir çox hallarda ata-ana öz karyerasının mənsəb imkanlarının qorunması naminə qohumluq əlaqələrinə üstünlük verirlər.

Məlahət Soltanqızının cəmiyyət üçün sosial bəla olan yoxsulluq problemini maddi münasibətlər müstəvisindən çıxarıb sevgi, məhəbbət duyğuları ilə bağlaması əslində onun cəmiyyətin həyatı ilə bağlı ziyalı narahatlığından irəli gəlir. Müəllif belə hesab edir ki, ictimai münasibətlərdə həssaslıq, səmimiyyət, bir-birinə doğmalıqla bağlanmış gənclərin məhəbbət hissləri əsas olmalıdır. Görünür, elə bu səbəbdən də o poemasında iki gəncin saf məhəbbətinin yaşantılarını yazıya gətirir. Və bu zaman onların başlarına gələn, hətta təsəvvür edə bilmədikləri hadisələrin mahiyyətini açıqlayır. Qələm əhli, söz adamları həmişə cəmiyyət üçün açıq bir sual qoyurlar: kimdir günahkar? Nədir insanları fəlakətə sürükləyən?

Cəmiyyətdə hər kəs öz imkanlarına görə özünə, ailəsinə yaşamaq imkanını təmin etməyə çalışır. Yəqin ki, hər kəs də çəkdiyi zəhmətin müqabilində müəyyən əmək haqqı alır. Özünə, ailəsinə dolanışıq təmin edir. Həyatda isti münasibəti, sevgili davranışı üstün tutanlar üçün az və ya çox əmək haqqı almaq, demək olar ki, problem yaratmır. Hər kəs bilir ki, nə qədər qazanır və qazancının müqabilində də necə yaşamalıdır.

M.Soltanqızının "Yoxsulluq" poemasının iki əsas qəhrəmanı Murad və Zənurə demək olar ki, həyatlarını hansı maddi təminat üzərində quracaqları haqqında heç düşünmürlər də. Çünki onlar üçün həyatın mənası sevgiləri ilə bağlıdır. Murad kifayət qədər imkanlı ailənin övladıdır. Oxuyub, müəyyən sahə üzrə təhsili var, özünə asanlıqla iş də tapıb. Kifayət qədər tay-tuşları arasında nüfuz sahibidir. Demək, Muradın dünyası üçün çatışmayan sevdiyi qızla ailə qurmaq istəyidir. Zənurə də halallıqla böyümüş bir ailənin övladıdır. Nənəsi onu çətinliklə böyüdüb. Anasızlığını, atasızlığını hiss etməməsi üçün bütün həyatını sərf edib. O, Zənurəni göz bəbəyi kimi qorumağa çalışır. İstəyir ki, Zənurə son nəticədə ağıllı bir oğlanla ailə qursun. Yalnız bu zaman nənə özünü xoşbəxt hiss edə bilər.

Zənurə sevdiyi oğlanla - Muradla ailə qurmaq istəyindədir. Amma çox yaxşı bilirik ki, yüksək dərəcə sevgi, inam hissi adətlərin, ənənələrin yaratdığı sədləri asanlıqla dağıdır. Yəqin ki, bir-birinə yüksək dərəcədə olan inam və sevgi hissinin qarşısında dağılan adət-ənənə sədlərini hər hansı birimiz də bədbəxtlik kimi qəbul etməzdik. Çünki məsələləri həll edən, taleləri qoruyan iki gəncin bir-birinə sonsuz inamıdır. Bu gənclər öz həyatlarını yalnız sevgi ilə yaşayacaqları ümidlərinin parlaq üfüqləri kimi təsəvvür edirlər.

Təəssüf ki, həyat gənclərin istədiyi kimi davam etmir. Muradın anası öz hikkəsi ilə oğlunun qarşısına qadağa sədləri çəkir. Onun üçün maraqlı deyil ki, oğlu artıq Zənurə ilə adət-ənənə səddini çoxdan aşıb. Zənurə öz bətnində Muradın körpəsini böyüdür.

Beləliklə, Murad anasının tələbləri qarşısında Zənurəni həyatın ixtiyarına buraxır. Bir növ ondan uzaqlaşır. Belə halda biz Zənurənin nənəsinin, elə özünün də nələr çəkdiyini asanlıqla təsəvvür edə bilərik. Müəllif bu mənzərəni elə özü də iztirablarla təsvir edir:

*Murad çəkdi ayağın*
*Bu ocaqdan, bu evdən.*
*Bir neçə vaxt öz-özünü*
*Elə danladı, durdu.*
*Ruhundakı cəsarət*
*Tapdalanmış qorxunu*
*Gözündən qaçırmışdı*
*Nə zamandır yuxunu.*
*Sanki tanrıdan gələn*
*Bir sədaydı, bir səsdi*
*"Kimsədən kömək umub,*
*Gözləməyin əbəsdi."*
*Bir gün Murad düşünmədən*
*Aldı, qaçırdı qızı*
*Sanki dartıb qoparmışdı*
*Bir əlçatmaz ulduzu.*
*Adına ana deyib*
*Qoynuna sığındığım,*
*Dərdimi bölüşdüyüm*
*Dar gündə ovunduğum*
*Bizi qoşa görüncə*
*Çəkib qovmaz qapıdan*
*İki qəlbi ayırmaz*
*Yəqin qorxar tanrıdan*

Murad ilk baxışdan gücsüz, zəif görünür. Sevgisi uğrunda mübarizə aparmaq iqtidarında olmayan bir gənc təsiri bağışlayır. Əlbəttə, o yaxşı başa düşür ki, anası haqsızdır. Amma anasını yola gətirmək, anasını inandırmaq üçün o həqiqətən gücsüzdür. Murad özü də iztirablarla yaşayır. Hətta dünyaya gəlməmiş körpəsinin boyunu xəyalı ilə sevir. Bu ağır düşüncələr içərisində yaşamaq, əslində sürünmək onun üçün çox çətindir. Demək olar ki, bütün günü həyatı fikir içində keçir. Çıxış yolu axtarır. Son nəticədə çıxış yolunu anasının hikkəsindən keçə biləcəyini, axır ki, bir insanlıq hissi ilə inadından dönəcəyini düşünür. Buna görə də belə qərara gəlir ki, o, Zənurəni düşdüyü çıxılmazlıqdan yalnız özü xilas edə bilər. Bütün hallarda o, həyatın mənasını Zənurə ilə ailə qurmaqda, Zənurə ilə birləşməkdə, qovuşmaqda görür.

Elə bu qənaətləri ilə də, nəhayət ki, tərəddüdlərdən qurtulur. Necə olur-olsun, bu çətinliyi aşıb keçəcəyi qərarına gəlir. Ona görə də daha anası ilə təzədən məsləhətləşməyin, bir qərara gəlməyin mənasız olduğunu düşünür. Çünki anasının hikkəsindən, inadından kifayət qədər xəbərdardır.

Beləliklə, Murad axır ki, cəsarətə gəlir. Sevgisi yolunda nələrə düçar ola biləcəyini də gözünün altına alaraq Zənurəni qaçırır. Əlbəttə, başqa yerə yox, lap elə anasının yanına gətirir. Anası haray-həşir qoparmasa da, Murad yaxşı görür ki, o, oğlunun gəlişindən qətiyyən sevinmir. Sanki həyat onun üçün qaranlıq bir dünyaya çevrilir.

Yəqin ki, bu anlarda o, oğlunun hansısa bir imkanlı ailə ilə qohumluq əlaqəsi quracaq niyyətləri də alt-üst edir. Ancaq neyləmək olar? Artıq iş-işdən keçib. O, soyuq baxışları ilə gəlinini süzür. Muradın yalvarışları, anasını əzizləməsi də onun daxilindəki etirazı razılığa çevirə bilmir.

İndi Murad tez-tez gələcək övladını yada salır. Bununla anasına təsir etmək istəyir. Bütün bunları müəllif sanki şahidi olduğu bir hadisə kimi təsvir edir. Biz poemanın bu hissələrində real həyat səhnəsi ilə qarşılaşırıq. Elə bil ki, Muradın anasını yola gətirməsi üçün yalvarışları, anasını oxşamaları, onu nəvə sevincini yaşamağa təhrik etməsi bizim də gözlərimizin önündə baş verir:

*Bu arzuyla, bu amalla*
*qaçırmışdı yarını.*
*Ana çaşqın baxışlarla*
*Qarşıladı oğlunu*
*Gözlərini gəzdirdikcə,*
*O, gəlinin üzündə*
*Sanki taqət çəkilirdi*
*Ayağından, dizindən.*
*Anasının gözlərində*
*Qəm, kədəri görüncə*
*Murad onu qucaqlayıb,*
*Öpdü nəm yanağından.*
*Dedi: - Ana, muğayat ol*
*İki-üç ay sonrası*
*Bir nəvən doğulacaq.*
*Ana bunu eşitcək*
*Dünya döndü başına*
*Güc verdi göz yaşına*
*Hönkürdü için-için*
*-Necə baxar qohumlar,*
*Necə baxar qonşular,*
*Söylə "bicdir" kəlməsi*
*Deyilməzmi körpənə?*

Ananın əslində niyyət üstündə qurulmuş düşüncəsi bəri başdan faciələrə yol açır. O indi də başqa bir mənəvi problem yaradır. Guya ki, vaxtından əvvəl doğulacaq uşaq ailəyə şərəfsizlik, namussuzluq ünvanı gətirəcək. Onun nəvəsini hamı barmaqla göstərib "bicdir" (yəni nikahdan kənar doğulmuş uşaqdır) deyəcək. Muradın anası bu qənaəti özünün daxili-mənəvi mühitində o qədər böyüdür ki, hətta bunu lap dünya dağılsa da, qəbul etməyin mümkünsüzlüyü qərarına gətirir. Bir sözlə, həyat belə bir dalğalı dəniz kimi cərəyan etməkdədir. Murad və Zənurə ikilikdə nə qədər xoşbəxt olsalar da, ana bir o qədər özünü bədbəxt hiss edir. Muradın istəkləri, yalvarışları heç bir nəticə vermir.

Ən başlıcası, Muradın anası lap qatı cinayət də olsa, bu yola getməyə hazırdır. Təki bu körpədən, oğlunun sevgilisi Zənurədən yaxasını qurtara bilsin. Adam onun hansı niyyətlərlə vurnuxduğunu təsəvvür edəndə dəhşətə gəlir. Mənəvi korluq insanı bu qədər dərəcədə qəddara, yırtıcıya çevirə bilərmiş. Beləcə, günlər ötür, ana isə öz içərisində yırtıcılıq niyyətini hər gün itiləməkdədir. O dünyaya gələcək körpəni gözləyir ki, özünü qatil adını gerçəkləşdirə bilsin.

*Ana elə deyindi,*
*Oddan köynək geyindi.*
*Gəlini qonum-qonşudan*
*Hər an uzaq saxladı.*
*Düşündü gecə-gündüz*
*Yerli-yersiz ağladı.*
*Mənim adım-sanım var.*
*Qohum-qardaş yanında*
*Başım olar aşağı*
*Gərək doğulan kimi*
*Oğurlayam uşağı.*
*Bu sirr burda batmalı.*
*Günlər ötdü birbədir*
*Gəlin canın bəslədi*
*Murad sevib-seçdiyin*
*Nazladı, əzizlədi.*

Doğrudur, ana bu niyyətlərlə yaşayarkən özünü qatil kimi yox, şərəf, namus qəhrəmanı kimi təsəvvür edir. Artıq qeyd etdik ki, o, mənən o dərəcədə kordur ki, baş verə biləcək cinayətin nə ilə, necə qurtaracağını heç düşünmür də.

Murad isə öz sevgisində sabit-qədəmdir. Özünü qalib hesab edir. Çünki o, sözün həqiqi mənasında Zənurəyə sevgi ilə bağlıdır. Yəqin ki, ikilikdə olanda onun saçlarını sığallayır, gözlərinə məhəbbətlə baxır. Bu zaman Murad hətta əlini uzadıb Zənurənin bətnindəki övladını da sığallayır. Onun üçün ad fikirləşir. Dünyaya gələcək körpəsi ilə necə xoşbəxt olacağını düşünür.

Zaman isə axarındadır. Körpə ananın bətnində böyüyür. Həyata gələcəyini, Zənurəni, Muradı necə sevindirəcəyini bir tale qisməti kimi göstərəcək. M.Soltanqızı bu yaşantıları həqiqətən çox real verir. Bətnində körpə böyüdən ananın hissləri, övlad gözləyən gənc atanın duyğuları - bütün bunlar çox inandırıcıdır. Sanki gördüyümüz, tanıdığımız adamları bir daha bu misralar arasında görürük. Onları təzədən tanıyırıq.

Yüksək dərəcədə sevgi hissi insanlarda həmişə qibtə oyadır. Başqaları da sonsuz məhəbbətlə bir-birini sevən gənclərə bənzəmək istəyirlər. Məhəbbət, sevgi duyğuları bu mənada cəmiyyətin mənəvi durumunun saflaşmasında əvəzsiz rol oynayır.

Nəhayət, təbiətin sərt bir günündə həyat birdən-birə dəyişir. Gənc atanı-ananı xoşbəxt edə biləcək bir körpə dünyaya gəlir. Amma bu körpə də, onun atası da, anası da nələrin baş verəcəyindən, körpənin taleyi üçün hansı hökmün yazıldığından xəbərsizdirlər. Hər halda hələ ki, körpə dünyaya gəlib. Onun xoşbəxtlik sədaları kimi səslənən səsi evi bir mənəvi saflıq duyğuları ilə çulğayır.

*Qarlı bir qış gecəsi...*
*Şaxta sarmış havanı*
*Qar örtmüşdü hər yanı.*
*Külək sovurur qarı*
*Döyüş daşı, divarı*
*Kənd elə bil yuxudaydı*
*Kəsilmişdi səs-səmir*
*Sanki insan yaşamırdı*
*Nədən yoxdu bir hənir?*
*Murad dünən yük dalınca*
*Yollanmışdı Bakıya*
*Yol boyunca övladıyçün*
*Yalvarmışdı tanrıya.*
*Gəlin sancı çəkirdi...*
*Canın tutub dişinə*
*Səsin salıb içinə,*
*Yerlə-göy arasında*
*Çırpınırdı quş kimi*
*Gözləri qaralandı*
*Sanki yer alandı*
*Sonda bir körpə səsi*
*Bir valığın nəfəsi*
*Doldu evə-eşiyə.*

Bəzən insanlar xoşbəxtliyi ilğım kimi düşünürlər. Elə bilirlər ki, xoşbəxtlik onları çağırır. Onlar həmin ilğımı keçib o xoşbəxtliyə yetməlidirlər. Amma bilmirlər, anlamırlar ki, əslində xoşbəxtlik onların lap yanındadır. Özləri xoşbəxtliyin içindədir. Məhz bunu düşünə bilməmək, əsil real həyatı görməmək çox vaxt insanları sonu bilinməyən hadisələrin ağuşuna çəkir. Bu hadisələr isə hara aparır, insanlar nə ilə qaşrılaşacaq, nələri görəcək - bunlar hələ gələcəyin işidir. Ancaq o vaxt xoşbəxtliyin içində olduğun bilmədən uzaqlardakı xoşbəxtlik havasına uçmaq acı nəticələri qarşısında qoyduğu insanı tale ittihamı ilə təltif edir. Beləcə, biz əsər boyu davam edən hadisələrin nəhayət ki sonluğuna gəlirik. Çox sərt, qeyri-adi dərəcədə, hətta heyrət doğura biləcək bir hadisə ilə qarşılaşırıq.

***(Davamı var)***